

> “Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 fevral 2026-cı il №16 (3018) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyevin sosial media hesablarında Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edilib




Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Xocalı soyqırımı bütün bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayətdir və yaddaşlardan heç vaxt silinməyəcəkdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük

Fevralın 25-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış olublar.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verib.

Bildirilib ki, Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxil olan bu kənd 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Burada ümumilikdə 278 fərdi ev var. Onlardan 128-i yararsız, 150-si isə qismən yararlıdır. Qismən yararlı evlərin 20-si artıq təmir olunub, bu il daha 130 evdə təmir işləri aparılacaq.

Bu ilin fevralında Xocavənd kəndinə 20 ailə - 94 nəfər qayıdıb. Cari ilin mart-dekabr aylarında kəndə daha 130 ailə - 533 nəfərin qayıtması planlaşdırılır.




Ötən müddət ərzində kənddə bir sıra sosialyönümlü işlər görülüb. Belə ki, 5 kilometr uzunluğunda daşıyıcı qaz xətti çəkilib, 1500 metr uzunluğunda mövcud xətt bərpa edilib. Bundan başqa, 2100 metr uzunluğunda 0,4 kV-luq mövcud xətlər və 2 transformator məntəqəsi bərpa olunub.

Kənddaxili yollar asfaltlanıb, piyada yolları çəkilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Görülmüş işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş sakin Rizvan İbrahimovun evində olublar və söhbət ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhərində görülmüş işlərlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma şəhərdə görülmüş işlər barədə məlumat verilib.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edilib. Şəhər 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub. Elə həmin il oktyabrın 15-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Xocavənd şəhərində Dövlət Bayrağımızı ucaldıb.

Xocavənd rayonunun ərazisi 1,51 min kvadratkilometrdir. Əhalisinin sayı isə 12 min 500 nəfərdir. Rayonun ərazi vahidinə 1 şəhər, 2 qəsəbə və 80 kənd daxildir.

Prezident İlham Əliyevə Xocavənd şəhərində əsaslı təmirdən sonra istifadəyə verilmiş fərdi evlər barədə məlumat verilib.

Xocavənddə 980 fərdi ev mövcuddur ki, onlardan da 133-ü yararsız, 847-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 55-i artıq istismara hazırdır. Bu il ərzində daha 792 ev təmir ediləcək.

Xatırladaq ki, bir neçə gün əvvəl Xocavənd şəhərinə 50 ailə - 194 nəfər qayıdıb. Ötən ilin sentyabrından indiyədək isə Xocavəndin 5 yaşayış məntəqəsinə - Xocavənd şəhərinə 50 ailə (194 nəfər), Qırmızı Bazar qəsəbəsinə 142 ailə (604 nəfər), Sos kəndinə 85 ailə (360 nəfər), Hadrut qəsəbəsinə 58 ailə (233 nəfər), Xocavənd kəndinə isə 20 ailə (94 nəfər) olmaqla, ümumilikdə 1485 nəfər - 355 ailə qayıdıb.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd şəhərinə köçmüş İlqar Həsənovun evində olublar və söhbət ediblər.

Sonra xatirə şəkilləri çəkdirilib.

**(Ardı 2-ci səhifədə)**

## Xocalı soyqırımının ildönümü ilə bağlı Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrində və xarici ölkələrdə akkreditə olunmuş hərbi attaşelik aparatlarının nümayəndəliklərində silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin, eləcə də Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimlərində bildirilib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra faciənin əsl hüquqi qiymətini alması ilə bağlı milli səviyyədə addımlar atılıb. Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib.

Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun həyata keçirdiyi məqsədyönlü fəaliyyətləri xüsusi vurğulanıb.




**(Ardı 6-cı səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb, söhbət ediblər.

Sakinlərlə söhbət zamanı **Prezident İlham Əliyev deyib:** Uzun illər əzab-əziyyət içində yaşamısınız. Köçkün həyatı ağır həyatdır, həm mənəvi əzablar, həm fiziki çətinliklər, öz doğma torpağını tərk edib başqa yerə, hətta Azərbaycanın içində olsa belə getmək və əzab-əziyyət içində yaşamaq böyük sınaqdır. Siz bu sınaqdan şərəflə çıxmısınız. Əminəm ki, bütün Azərbaycan xalqı, siz də hər zaman inanırdınız ki, bu gün gələcək və bu torpaqları biz azad edəcəyik, ədaləti bərpa edəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Bildiyiniz kimi, vaxtilə işğal edilmiş torpaqların böyük hissəsi beş il bundan əvvəl Vətən müharibəsi zamanı azad olunsa da, Xocavənd hələ də işğal altında qalmışdı və xocavəndlilər də hesab edirdilər ki, nə vaxtsa vəziyyət dəyişəcək. Əminəm, cəmiyyətdə inam var idi ki, bir qarış torpaq da düşmənin tapdağı altında qalmayacaq və biz buna da nail olduq. Artıq iki ildən çoxdur ki, bütün əraziyə - Azərbaycan dövlətinin suveren ərazisinə biz nəzarət edirik. Düşmənin sonuncu yuvasını da dağıtmışıq, separatçıları da qovmuşuq, onları da məhkəmə qarşısında cavab verməyə məcbur etmişik və ədaləti tam bərpa etmişik. Ona görə artıq o ağır dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər belə tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır.



İndi isə quruculuq vaxtıdır və burada artıq dövlət sizin üçün şərait yaradıb. Evlərin bəziləri bərpa edilib, yenidən qurulub. Bu proses davam etdiriləcək. On minlərlə Azərbaycan vətəndaşı artıq azad edilmiş torpaqlarda yaşayır və onlardan təqribən 30 minə yaxını keçmiş köçkünlərdir. Bildiyiniz kimi, biz əsas bu son 4-5 il ərzində infrastruktur layihələrinə vəsait ayırırdıq. Çünki yaşamaq üçün əsas ilkin şərtlər olmalıdır - elektrik, qaz, su, yollar, körpülər, tunellər. İndi isə daha çox yaşayış evlərinin tikintisi, bərpası məsələlərinə vəsait ayrılacaq. Ona görə "Böyük Qayıdış" prosesi daha sürətlə gedəcək.



Burada iş yerləri də yaradılır, həm dövlət xətti ilə, həm ictimai təşkilatların xətti ilə və əlbəttə ki, özəl sektor. Burada yaşayan insanların əksəriyyəti vaxtilə kənd təsərrüfatı ilə məşğul idi. Siz yaxşı bilirsiniz ki, bu bölgənin çox gözəl təbiəti var, münbit torpağı var, suyu var, bulaqları var, hər şey var. Əsas odur ki, insanlar artıq burada rahat yaşasınlar və tam əmin olsunlar ki, bir daha xalqımızın başına belə fəlakətlər gəlməyəcək.

**Sakinlər:** Amin, inşallah!

**Prezident İlham Əliyev:** Bunun üçün də hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq. Necə ki, inamla baxırıq və yaşayırıq.

Sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzu edirəm.

* * *

Sonra xatirə şəkilləri çəkdirilib.




* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocalı rayonunun Xanabad kəndində görülmüş işlərlə tanış olublar.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma kənddə görülmüş işlər barədə məlumat verib.

Xanabad Xocalı rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd Silahlı Qüvvələrimizin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Işğaldan əvvəl kənddə orta məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Burada ölkə əhəmiyyətli XIII əsrə aid kilsə və IX əsrə aid "Aslan qalası" memarlıq abidələri var.



Kənddə ümumilikdə 276 ev var ki, onlardan da 115-i yararsız, 161-i isə qismən yararlıdır. İndiyədək 120 ev təmir olunub. Bu ilin sonunadək daha 41 ev istismara hazır olacaq. Bir neçə gün əvvəl 38 ailə - 154 nəfər kəndə qayıdıb.

Xanabadda bir sıra sosial layihələr icra olunub. Belə ki, mövcud 3 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa edilib, eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyularında və su anbarında təmir işləri aparılıb, 2 yeni su anbarının qurulması işlərinə başlanılıb. Kəndin su təminatı üçün Əsgəran qəsəbəsinin ərazisində nasos stansiyası inşa edilib, kənddaxili yollar bərpa olunub. Kəndin girişində "Xanabad" kompozisiyası quraşdırılıb, Xanabad gölünün sahilində park salınıb, estakada inşa edilib və Dövlət Bayrağı ucaldılıb.

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş Əmrah Sahiblinin evində olublar, sakinlərlə söhbət ediblər.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev Memorialın önünə əklil qoyub.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Memorial barədə məlumat verib.

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq Memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində "Xocalıya ədalət!" kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük



(Əvvəli 2-ci səhifədə)

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb.

Ekspozisiya ziyarətçiləri "Faciənin siması" instalyasiyası ilə qarşılayır. Rəşad Ələkbərov və Azər Rüstəmovun müəllifləri olduqları instalyasiya 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş soyqırımının qurbanlarını - qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri canlandırır.

Memorialın tavanı boyu uçuşan göyərçin maketləri isə bütün dünyaya sülh arzulayan Xocalının faciə zamanı qətlə yetirilmiş günahsız sakinlərinin xatirəsinə ehtiram əlamətidir.

XX əsrdə insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən biri olan Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorizminin Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Burada "Xocalı - qədim sivilizasiyanın izləri", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalını unutma!" adlı ekspozisiyalarda Xocalının tarixi, işğalın coğrafiyası, münaqişənin xronologiyası, beynəlxalq hüquq normalarının pozulması, bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.

Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim olunur.

İkinci ekspozisiya zalında Sərxan Hacıyevin "Bir gecənin içində səssiz qalan evlər" instalyasiyası və faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, insanlıq əleyhinə yönəlmiş cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular, sükuta qərq olan uşaq gülüşləri süni intellektlə hazırlanan video vasitəsilə təqdim edilir.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, müxtəlif dillərdə hazırlanan nəşrlər və informasiya materialları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər və onun fəal iştirakı ilə bu sahədə həyata keçirilmiş tədbirlər əks etdirilir.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, "Böyük Qayıdış" və "Viran edilən Xocalı yenidən dirçələcək" ideyası ilə tamamlanır.

Memorialın növbəti bölməsində rəsmi tədbirlərin və anım mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulan akt zalı var.

Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törədib. Faciə zamanı 613 nəfər qətlə yetirilib. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insan olub. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib.

İşğaldan azad edilən Xocalıda ucaldılan Memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq və tarixi həqiqətləri hər bir ziyarətçiyə çatdıracaq.

Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edir. Xocalı qurbanlarının ruhları bu gün şaddır. Müzəffər Ali Baş Komandanın da dediyi kimi, onların qanı yerdə qalmadı, onların qisası Vətən müharibəsi zamanı döyüş meydanında alındı.

Sonra Prezident İlham Əliyev Memorialın xatirə kitabına ürək sözlərini yazıb.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Memorialla tanış olublar və Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- İki il bundan əvvəl Xocalı Soyqırımı Memorial Kompleksinin təməli mənim iştirakımla qoyulmuşdur. Bu gün isə bu Memorial Kompleksin açılışına toplaşmışıq.

Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır. Bir gecə içində 600-dən çox günahsız mülki şəxs, onlardan 106-sı qadın, 63-ü uşaq erməni faşistləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir, 150 nəfər itkin düşmüş və aydın məsələdir ki, onlar da ermənilər tərəfindən öldürülmüşdür. Onların bəzilərinin torpaqları işğaldan sonra qalıqları tapıldı və torpağa tapşırıldı.

Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir.



"Xocalıya ədalət!" hərəkatının təsiri böyük olmuşdur. Yenə də deyirəm, biz ədalət tələb edirdik. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, dünyanın aparıcı ölkələri bizim bu faciəmizə biganə yanaşırdılar. Yenə də bildirmək istəyirəm, Ermənistan dövlətinin törətdiyi bu qanlı cinayəti ört-basdır etməyə çalışırdılar. Biz isə ədalətə addım-addım irəliləyirdik. 20-yə yaxın ölkənin Xocalı soyqırımını rəsmən tanıması bir addım idi, Vətən müharibəsi və şanlı Zəfərimiz ikinci addım idi, Xocalı şəhərinin iki il yarım bundan əvvəl azad edilməsi isə son addımlardan biri idi. Nəhayət, axırıncı addım bu yaxınlarda hərbi cinayətkarlara qarşı Bakıda keçirilmiş məhkəmə prosesi idi. Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular.



Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi.

Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi. İşğal dövründə bizə nə qədər təzyiqlər olub, təhdidlər olub, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. İşğal dövründə bizə tez-tez belə siqnallar ünvanlanırdı ki, reallıqla barışmaq lazımdır, Azərbaycan öz torpaqlarını azad edə bilməyəcək, böyük dövlətlər, Ermənistanın havadarları buna imkan verməyəcək, Azərbaycan Ordusu döyüş meydanında qələbə qazana bilməyəcək. Bu kimi uydurulmuş şayiələr həm geniş informasiya məkanında yayılır, həm də müxtəlif kanallar vasitəsilə Azərbaycan rəhbərliyinə çatdırılırdı. Amma bizim iradəmizə təsir edə biləcək heç bir qüvvə yox idi və bunu biz dəfələrlə bəyan etmişdik. İşğal dövründə həm mötəbər beynəlxalq kürsülərdən, eyni zamanda, ovaxtkı köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında bildirirdim ki, biz işğalla barışmayacağıq və məsələ danışıqlar yolu ilə həll olunmazsa, ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik və belə də oldu.

Birinci dəfə Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimindəki çıxışımda da bildirmişdim ki, bu, bizim üçün əsas məsələdir və ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Hazırlıq dövrü çox çəkdi, bu da təbiidir. Çünki güc yığmalı idik, güc toplamalı idik. Öz haqq işimizi beynəlxalq müstəvidə təsdiqləməli idik, o cümlədən Ermənistan dövlətinin hərbi cinayətləri haqqında məlumatı çatdırmalı idik. Xocalı soyqırımı ilə bağlı həqiqətləri çatdırmalı idik və çatdırmışıq. Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük




(Əvvəli 3-cü səhifədə)

Bu, Ermənistan-Azərbaycan münaqişəsinin hüquqi əsasını təşkil etmişdir. Biz bir çox ölkələrlə sıx ikitərəfli münasibətlər, bir çox ölkələrlə strateji tərəfdaşlıq münasibətləri qurduq. Bu da beynəlxalq müstəvidə Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsi həqiqətlərini çatdırmaq üçün imkan yaratmışdır. Heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurduq. Güclü ordu qurduq - həm Ordumuzun peşəkarlığını artırdıq, eyni zamanda, əldə edilən gəlirlər hesabına silah-sursat, texnika aldıq. Yəni, hər gün, hər ay biz Qələbəyə doğru addımlayırdıq və mən bunu işğal dövründə dəfələrlə demişdim ki, hər gün biz Qələbəni yaxınlaşdırmalı idik və yaxınlaşdırdıq. Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq,




düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq. Bu gün son iki il yarımlıq tarix göstərir ki, bu, nə qədər düzgün və düşünülmüş addım idi. Düzdür, o vaxt Xocalı, Xankəndi və bəzi digər yaşayış məntəqələri işğaldan azad edilməmişdi, ancaq mən bilirdim və əminəm, Azərbaycan xalqı bilirdi ki, o gün uzaqda deyil. 2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi.

Bu gün bu Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir. Çünki mən bunu iki il bundan




əvvəl təməlqoyma mərasimində demişdim. Xocalılılarla birlikdə bu kompleksin təməlini qoyduq. O vaxt demişdim ki, Heydər Əliyev Fondu tərəfindən bu layihə çoxdan hazır idi, bax necə var, necə tikilib, elə də nəzərdə tutulmuşdu, Bakıda yer də seçilmişdi və artıq mənim son qərarım lazım idi ki, biz bunun inşasına başlayaq. Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu. Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur.

Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır.

Əfsuslar olsun ki, Vətən müharibəsi Ermənistan dövlətinə dərs olmadı. Halbuki 2020-ci ilin Zəfərindən sonra dəfələrlə müxtəlif yollarla Ermənistan rəhbərliyinə biz öz mövqeyimizi çatdırmışdıq - heç kimə güvənməsin, heç kimə bel bağlamasın. Xarici ölkələrin hərbçiləri bizim torpağımızda bizim icazəmizlə müvəqqəti olaraq yerləşiblər. Əgər kimsə hesab edir ki, bu bizi nədənsə çəkindirəcək, səhv edir. Dəfələrlə Ermənistan tərəfinə xəbər göndərmişdik ki, separatçılığa son qoyulsun, qanunsuz xunta rejimi fəaliyyətini dayandırsın, Qarabağ torpağında yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Bunu dəfələrlə bildirmişdik. Hətta internet vasitəsilə reinteqrasiya proqramını təqdim etmişik, amma biz adekvat cavab almamışıq. Əksinə, separatçılar və onların arxasında duran qüvvələr daha da azğınlaşmışdı. 2020-ci ilin Zəfərindən 2023-cü ilin antiterror əməliyyatına qədər buraya dəfələrlə xarici dövlətlərin nümayəndələri qanunsuz gəlmişdilər. Bugünkü mərasimdə o ölkələrin heç adlarını çəkmək istəmirəm. Separatçılara ürək-dirək vermək üçün, onları bizə qarşı yenə də təhrik etmək üçün, Azərbaycan dövlətini, dövlətçiliyini saymamaq üçün tövsiyələr verilirdi, silahlar göndərilirdi, minalar göndərilirdi. Hesab edirdilər ki, xarici dövlətin burada məskunlaşan kontingenti bizi nədənsə çəkindirəcək. Bizi heç nədən çəkindirə bilməzdi və bir neçə saat ərzində davam edən antiterror əməliyyatı bunu bütün dünyaya göstərdi. Bizim iradəmizə qarşı çıxanın başı əziləcək.

Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək






olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı. Biz bu Memorial Kompleksin açılışında iştirak edərkən bir daha deyirik ki, bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan



1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı. Bu gün xalqımıza, dövlətimizə olan hörmət, o cümlədən məhz buna görədir. O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsellidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın.

* * *

Sonra **Nərgiz Mahmudova, Anar Əbdülov** və Milli Qəhrəman Natiq Qasımovun bacısı **Kəmalə Heydərova** çıxış ediblər.

* * *

Çıxışlardan sonra xatirə şəkilləri çəkdirilib.

Sonra dövlətimizin başçısı sakinlərlə söhbət edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbər heyəti "Ana harayı" abidəsini ziyarət edib





Müdafiə Nazirliyi xəbər verir ki, fevralın 26-sı Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti "Ana harayı" abidəsini ziyarət edib.

Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən abidə önünə gül dəstələri düzülüb, faciə qurbanlarının xatirəsinə ehtiram nümayiş etdirilib.



# Rusiya nümayəndə heyəti ölkəmizdə səfərdədir




Rusiya Federasiyası Müdafiə Nazirliyinin Silahlandırma rəisi - Hava Kosmik Qüvvələri Baş Komandanının silahlandırma üzrə müavini general-polkovnik Yuriy Qrexovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi Hava Qüvvələrində olan nümayəndə heyəti burada müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə ilə görüşüb.

Görüşdə Azərbaycanla Rusiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti Milli Müdafiə Universitetinin komandanlığı və bir qrup dinləyicilərin iştirakı ilə keçirilən seminarda iştirak edib.

Seminarda hərbi-təhsil və elm sahəsində tətbiq edilən yeniliklər barədə fikir mübadiləsi aparılıb.

## Türkiyə XİN: Can Azərbaycanın ağrısını daim qəlbimizdə hiss edirik

Türkiyənin Xarici İşlər Nazirliyi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar başsağlığı mesajı yayımlayıb.

AZƏRTAC xəbər verir ki, mesaj günün xatirəsinə xüsusi hazırlanan tanıtım fotosu ilə paylaşılıb.

Paylaşımda bildirilib: "1992-ci il fevralın 26-da Xocalıda qətlə yetirilən azərbaycanlı qardaşlarımızın əziz xatirəsini hörmət və ehtiramla anır, Can Azərbaycanın ağrısını daim qəlbimizdə hiss edirik".

## Bakıda NATO heyəti ilə "Məsləhətçi görüşü" keçirilir



Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2026-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı (IPCP) çərçivəsində Bakıda "Məsləhətçi görüşü" keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Qiymətləndirmə və Rəy proqramının vacib hissəsi olan "Məsləhətçi görüşü"ndə cari ilin iyun ayında ölkəmizdə keçiriləcək ƏİK bölmələrinin "1-ci səviyyəli özünü qiymətləndirmə" (SEL-1) təliminin planlama və hazırlıq vəziyyəti izah olunub.

Müdafiə Nazirliyinin nümayəndələri və xarici mütəxəssislərin iştirakı ilə keçirilən görüşün əsas məqsədi ƏİK proqramına yeni bəyan edilmiş bölmələrimizin döyüş hazırlığı fəaliyyətləri, təminat və təchizatlarının, eləcə də bölmələrin NATO standartlarına uyarlılıq səviyyəsini yoxlamaq məqsədilə tərtib olunmuş qiymətləndirmə suallarının dəqiqləşdirilməsi və təsdiqlənməsidir.

*Nümunəvi xidmət*

# Nəsildən-nəslə ötürülən müqəddəs amal

Azərbaycan Ordusunun sıralarında sədaqətlə xidmət edən hər bir hərbi qulluqçu ailəsinin qüruru və Vətənin güvənc yeridir. Gizir Əkbər Əliyarov da məhz belə hərbi qulluqçulardandır. O, kökü şəhidliyə, qəhrəmanlığa, mübarizliyə söykənən bir nəslin davamçısı, peşəsinə vicdanla yanaşan bir Azərbaycan hərbçisidir.

İsmayıllı rayonunun Qoşakənd kəndində dünyaya göz açan Əkbər Əliyarov üçün Vətən anlayışı uşaq yaşlarından sadəcə söz yox, həyat fəlsəfəsi olub. Belə ki, ta əvvəlindən bu ailədə vətənpərvərlik danışılmırdı - yaşanırdı.

Atası Yəhya Əliyarov Birinci Qarabağ müharibəsinin veteranı olaraq ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərin canlı şahidi olub. Əmisi Vaqif Əliyarov isə həmin döyüşlərdə şəhidlik zirvəsinə ucalaraq əbədi şücaət səhifəsi yazıb.

Belə bir mühitdə böyüyən Əkbər Əliyarov üçün hərbi xidmət sadəcə peşə seçimi deyil, həm də mənəvi borc olub.

Gizir Ə.Əliyarov həmin illəri belə xatırlayır: "Mənim üçün hərbçi olmaq bir mirasdır. Uşaq yaşlarımdan evimizdə döyüş xatirələri, Vətən uğrunda fədakarlıq söhbətləri ilə böyümüşəm. Əmimin yarımçıq qalmış arzularını tamamlamaq, atamın şərəfli



yolunu davam etdirmək üçün bu formanı geyindim. Bu, bir vətəndaşlıq borcu ilə yanaşı, mənəvi varislik məsələsidir".

Artıq 18 ildir ki, gizir Əkbər Əliyarov Azərbaycan Ordusunun sıralarında xidmət edir. Bu illər təkcə zaman ölçüsü deyil, həm də Vətənə sədaqətlə dolu bir yoldur.

Əkbər Əliyarovun xidmət yolu Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan tarixi mübarizənin real izlərini daşıyır. 44 günlük Vətən müharibəsi və 2023-cü ildə keçirilən antiterror əməliyyatında iştirak edib, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Əliyarovlar ailəsində Vətən anlayışı irs kimidir. Bir nəsil döyüşüb, biri şəhid olub, digəri bu gün də xidmətini uğurla davam etdirir.

Atanın veteranlıq həyatı, əminin şəhidlik zirvəsi və Əkbər Əliyarovun uzunmüddətli hərbi xidməti göstərir ki, bu ailədə torpaq sevgisi sözlə deyil, əməl ilə sübut olunur.

Bu, tək bir hərbi qulluqçunun taleyi yox, minlərlə ailənin ümumi igidlik salnaməsidir.

Cəmiyyət çox zaman qəhrəmanlığı döyüş səhnələri ilə ölçür. Halbuki ordunun gücü məhz səngərdə dayanan, məsuliyyəti çiyinlərində daşıyan səssiz fədakarların hesabına formalaşır. Onlar gecə-gündüz bilmədən sülhün keşiyində dayanır, sabitliyin görünməyən sipəri olurlar.

Gizir Əkbər Əliyarovun həyatı bir insanın taleyindən daha artıq məna daşıyır. Bu həyat mübarizəsinin ailə yaddaşına çevrildiyi, xidmətin şərəf sayıldığı, torpağın qorunduğu bir fəlsəfədir.

Şəhid əminin ruhuna ehtiramla, veteran atanın yoluna sədaqətlə və Azərbaycan Ordusuna sarsılmaz bağlılıqla davam edən bu xidmət yolu gələcək nəsillər üçün nümunə məktəbidir. Belə oğullar var olduqca Azərbaycan güclü olacaq, torpaqlarımız əmin əllərdə qorunacaq, Zəfər ruhu daim yaşayacaq.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Xocalı soyqırımının ildönümü ilə bağlı Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib



(Əvvəli 1-ci səhifədə)

Silsilə tədbirlər çərçivəsində saat 17:00-da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələr ziyarət olunub, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub, fotosərgilər, ədəbi-bədii kompozisiyalar və filmlər nümayiş etdirilib.

* * *

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Yanmış şəhərin fəryadı" adlı tədbir keçirildi. Hər iki tədbirdə zabitlər, müəllimlər, kursantlar və başqa qonaqlar iştirak etdilər.

Xocalı soyqırımına həsr olunmuş sənədli, qısametrajlı film nümayiş edildi.

Tədbirdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov çıxış edərək dedi ki, xalqımız Qarabağın heç zaman Azərbaycanın tərkibindən ayrılmasına razı olmayıb və haqq mübarizəsini davam etdirib. "Erməni silahlı birləşmələri o zaman Qarabağda yaşayan minlərlə azərbaycanlını dədə-baba yurdundan zorla didərgin salmaqla, ev-eşiklərini qarət edərək yandırdılar. Xocalılılar isə son ana qədər düşmənə müqavimət göstərib və dörd ay mühasirədə yaşamaq məcburiyyətində qalmalarına baxmayaraq, doğma ev-eşiklərini tərk etməyiblər. Məkrli düşmən xocalıların qətiyyətini, inadkarlığını görüncə mühasirədə olan əliyalın əhalinin üzərinə hücum etmək qərarına gəlib. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndidə yerləşən SSRİ-nin 366-cı motoatıcı alayının köməkliyi ilə Xocalı şəhərinə tanklardan, zirehli döyüş texnikalarından hücum edib, dinc əhalini güllələbaran ediblər. Qoca, qadın, uşaq demədən qarşısına keçəni güllələyiblər. Həmin gecə 613 nəfər öldürülmüş, 1275 nəfər girov götürülmüş, 150 nəfərin taleyi hələ də məlum deyildir. Bakı şəhərində ucaldılmış Xocalı soyqırımı abidəsi də faciə qurbanlarına hörmət və ehtiram əlamətidir. Azərbaycan xalqı hər il 26 fevralı Xocalı Soyqırımı Günü kimi qeyd edir.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızın mübarizə əzmini sarsıtmadı, qəhrəman övladlarımızı Vətən naminə qətiyyətli, mütəşəkkil mübarizəyə səfərbər etdi. İllər keçdi, 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində 30 ilə yaxın erməni işğalı altında qalan torpaqlarımız 44 günə azad edildi. Müharibədə misilsiz igidlik nümunələri göstərən oğullarımız Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldılar. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən antiterror əməliyyatı ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Şəhidlərin qanı yerdə qalmadı.



Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında Xocalı faciəsinə həsr olunmuş mahnılar səsləndirilib, bədii kompozisiya nümayiş olunub.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Xocalı soyqırımı hər birimizin yaddaşına əbədi həkk olunub. Bu soyqırımı mülki əhaliyə qarşı törədilmiş cinayətlərin ən dəhşətlisidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları Xocalı şəhərini yerlə-yeksan etdilər. Bu amansız, qanlı cinayət həyata keçiriləndə xocalılılar son anadək mübarizə apararaq düşmən qarşısında əyilmədi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyib: "Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Azərbaycan Hərb Tarixi Muzeyində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı - tarixi faktlarla üz-üzə" adlı tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin nümayəndələri iştirak etdilər.

Tədbiri muzeyin rəisi, ehtiyatda olan polkovnik Elşad Pənahov açaraq dedi ki, Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişə dövründə ən faciəli, tarixdə bənzəri olmayan hadisələrdən biri - ən qədim insan məskənlərimizdən olan Xocalıda baş vermiş soyqırımı olub. "Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost, Xatın, Lidisa, Sonqmi soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla müqayisə oluna bilər.





Ermənilərin əsas hədəflərdən biri olaraq Xocalını seçməsi heç də təsadüfi deyildi. Onların əsas məqsədi bir tərəfdən azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən isə ümumiyyətlə, Xocalını yer üzündən birdəfəlik silmək idi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərindəki keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etdilər. Əvvəlcə şəhər erməni qoşunları tərəfindən mühasirəyə alındı, daha sonra isə artilleriya və ağır hərbi texnikadan atəş açıldı, az bir vaxt ərzində şəhər tamamilə alovlara büründü. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edildi".

Muzeyin rəisi bildirdi ki, 1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. "Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada 3 minə yaxın əhali vardı. Çünki mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmağa məcbur olmuşdu.

Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü. Faciə baş verən gecə 1275 dinc sakin girov götürüldü... Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtulmaq istəyərkən əvvəlcədən hazırlanmış pusqularda qətlə yetirildi. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdi. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdi. Ekspertiza zamanı müəyyən edilmişdi ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər isə küt alətlə vurularaq öldürülmüşdü. Bununla yanaşı, ağıla gəlməyən vəhşiliklər, zorakılıqlar törədildi. Bu faciəni törətməklə ermənilər xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir hissəsini itirməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi".

- Ən başlıcası isə odur ki, 44 gün davam etmiş Vətən müharibəsi və sonrakı əməliyyatlar sayəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə şanlı Azərbaycan Ordusu işğalçı Ermənistanı tarixi torpaqlarımızdan qovub çıxardı. Hərb tariximizə unudulmayacaq və hər zaman qürur hissi doğuran səhifələr yazdı. Azərbaycan əsgəri günahsız xocalılıların qisasını döyüş meydanında mənfur düşməndən aldı, torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Prezident İlham Əliyevin dediyi kimi: "Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın".

Bu gün bir daha Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərimizi, o cümlədən Xocalı qurbanlarının xatirəsini dərin hörmətlə anırıq, - deyə muzey rəisi qeyd etdi.

Tədbirdə muzeyin tədqiqatçı baş elmi işçiləri, professor Hacı Həsənov "Xocalı - bəşəriyyətə qarşı qanlı cinayət" və tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov "Xocalı faciəsinə aparan yol: dövrün ictimai-siyasi durumuna baxış" adlı məruzələrlə çıxış edərək vurğuladılar ki, bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Vaxtilə Ermənistanda mühüm dövlət postları tutmuş Seyran Ohanyan, Serj Sarkisyan, Robert Köçəryan və digər cinayətkarlar baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər. Belə ağır soyqırımı cinayətləri heç zaman xalqın və tarixin yaddaşından silinmir.

Sonda Xocalı faciəsinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olundu.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

Gənc zabitlərimiz

# Vətənə sədaqətlə seçilən yol



**Vətənə xidmət anlayışı bəzən insanın həyat yolunu dəyişən bir seçimə çevrilir. Bu seçim rahatlıqdan daha çox məsuliyyət, şəxsi arzularından daha çox xalqın təhlükəsizliyini düşünmək deməkdir. Azərbaycan Ordusunun sıralarında xidmət edən hərbi qulluqçuların həyat hekayəsi vətənpərvərlik, iradə və sədaqətin canlı nümunəsidir. Baş leytenant İdris Yaşar oğlu Qarazadə seçdiyi yolun məsuliyyətini dərk edən hərbçilərdəndir.**

1992-ci il oktyabrın 22-də Biləsuvar rayonunda dünyaya göz açan İdris Qarazadənin həyat yolu ilk baxışdan hərbi sahədən uzaq görünürdü. O, Azərbaycan Memarlıq və İnşaat Universitetində "İnşaat mühəndisliyi" ixtisası üzrə ali təhsil alaraq mülki sahədə fəaliyyət göstərmək imkanı qazansa da, Vətənə xidmət arzusu onun gələcək seçimində həlledici rol oynadı.

2015-ci ildə "Ehtiyat zabit hazırlığı kursu"nu uğurla başa vurması onun həyatında yeni mərhələnin başlanğıcı oldu. Bu mərhələ artıq məsuliyyətli qərarların, liderlik bacarıqlarının və zabit qətiyyətinin formalaşdığı bir yol idi. Mühəndis təfəkkürü ilə hərbi intizamın vəhdəti isə onun xidmətində özünü açıq şəkildə göstərdi - planlı düşünmək, vəziyyəti analiz etmək və düzgün qərar vermək bacarığı komandir kimi fəaliyyətində mühüm üstünlüyə çevrildi.

Hərbi xidmət illəri ərzində baş leytenant İdris Qarazadə şəxsi heyətlə işləmək bacarığı, tələbkarlıqla qayğını birləşdirə bilməsi və nümunəvi davranışı ilə seçilib. Onun təbiyində olan şəxsi heyət arasında intizamın və qarşılıqlı hörmətin qorunması təsadüfi deyil. Çünki o, əmr verməyi yalnız vəzifə borcu kimi deyil, eyni zamanda, şəxsi nümunə ilə liderlik etməyin vacibliyi kimi qəbul edir.

Hər bir zabit üçün əsas meyar döyüş şəraitində özünü doğrultmaqdır. Antiterror əməliyyatında iştirak etməsi isə onun peşəkarlığının və döyüş hazırlığının real sınaqdan keçdiyini göstərir. Bu əməliyyat zamanı nümayiş etdirdiyi məsuliyyət və döyüş tapşırıqlarının dəqiq icrası zabitin xidmət yolunda mühüm mərhələ kimi yadda qalıb.

Müasir müharibələr yalnız fiziki güc deyil, həm də düşüncə çevikliyi, operativ qərarvermə və psixoloji dayanıqlıq tələb edir. Baş leytenant Qarazadə üçün antiterror əməliyyatı məhz bu keyfiyyətlərin daha da möhkəmləndiyi bir məktəb oldu. Döyüş şəraitində qazanılan təcrübə onun komandir kimi baxışlarını dəyişdirərək şəxsi heyətə yanaşmasında daha böyük məsuliyyət hissi formalaşdırdı.

Zabit hesab edir ki, döyüş meydanında qazanılan uğurun əsas sirri əvvəlcədən görülən hazırlıq, şəxsi heyətin peşəkarlığı və komandirlə əsgər arasında yaranan etimaddır. Bu etimad isə yalnız gündəlik xidmət, təlim və birgə zəhmət nəticəsində yaranır.

Baş leytenant İdris Qarazadə xidmət etdiyi kollektivdə gənc hərbi qulluqçular üçün həm komandir, həm də qayğıkeş insan kimi qəbul olunur. Onun fikrincə zabit həm əmrləri icra etdirən rəhbər kimi, həm də şəxsi heyətin mənəvi dayaq nöqtəsi olmalıdır.

O, hərbi xidmətə yeni başlayan əsgərlərə, ilk növbədə, məsuliyyət hissinin və Vətən sevgisinin vacibliyini aşılayır. Çünki güclü ordunun əsasını texnika ilə yanaşı, mənəvi cəhətdən möhkəm olan hərbçilər də təşkil edir.

Bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların fəaliyyəti ölkənin təhlükəsizliyinin təmin olunmasının əsas dayaqlarından biridir. Onların xidmət yolu isə göstərir ki, vətənpərvərlik əməl və fədakarlıqla ölçülür. Hərbi qulluqçularımızın keçdiyi yol gənc nəslə bir həqiqəti xatırladır - Vətənə xidmət insanın həyatında ən böyük məsuliyyət, eyni zamanda, ən böyük qürur mənbəyidir.

Hərbçi taleyi təvazökar qəhrəmanlıq tarixidir. Bu tarix bəzən təlim meydanlarında, bəzən isə döyüş əməliyyatlarda yazılır. Baş leytenant İdris Qarazadənin xidmət yolu da məhz belə yazılan salnamələrdəndir - məsuliyyət və sədaqətlə davam edən bir yol. Çünki Vətənin təhlükəsizliyi sərhədlərdə dayanan silahdan deyil, o silahı tutan ürəyin inamından başlayır. Bu inam yaşadıqca, Azərbaycan əsgəri daim güclü, Azərbaycan Ordusu isə hər zaman qalib olacaqdır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Şəxsi heyətin sağlamlığı hər zaman diqqət mərkəzində saxlanılır



**Bu gün yüksək ixtisaslı, peşəkar hərbi tibb heyətimiz Vətənimizin keşiyində əzmlə dayanan əsgər və zabitlərimizin sağlamlığının qorunmasında əllərindən gələni əsirgəmirlər. Şəxsi heyətin sağlamlığının, sağlam həyat səviyyəsinin qorunması hərbi səhiyyəmizin qarşısında duran zəruri məsələlərdəndir.**

İşğaldan azad olunmuş ərazilərimizdə yeni tikilən və bərpa edilən hərbi hospitalların maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi, tibbi idarəetmədə və müalicə proseslərində texnologiyanın ən son nailiyyətlərindən istifadə olunması nəzərdə tutulur və tətbiq edilir. Fəxrlə deyə bilərik ki, müasir tələblər əsasında qurulan hərbi tibb müəssisələrində şəxsi heyətin sağlamlığı daima diqqət mərkəzində saxlanılır.

İşğaldan azad olunmuş ərazilərimizdən birində yerləşən hərbi hospitalın lazımi şəraiti, müasir avadanlıqlarla təchiz olunan kabinetləri, səliqə-sahmanı diqqəti cəlb etdi. Burada şəxsi heyətin sağlamlığının təmin olunması üçün peşəkar tibb heyətinin xidmət apardığını öyrənirik.

Gənc zabit tibb xidməti baş leytenantı Səlcuq Kərimovun sözlərinə görə, şəxsi heyətin sağlamlığının qorunması üçün müntəzəm profilaktik tədbirlər həyata keçirilir. "İlk işimiz xüsusilə gənc əsgərlərin sağlamlığının diqqət mərkəzində saxlanılmasıdır. Çünki onların relyefə uyğunlaşması üçün müəyyən zaman lazımdır. Təbii ki, burada hava şəraiti də mühüm rol oynayır. Son vaxtlar keçirilən tibbi tədbirlər nəticəsində xəstəliklər minimuma enib. Qurulan yüksək şəraitin, vaxtında göstərilən tibbi müdaxilənin hesabına şəxsi heyət arasında xəstələnmə, eləcə də aparılan profilaktik tədbirlər nəticəsində şəxsi heyətin mövsümi xəstəliklərə yoluxma halları da kəskin şəkildə azalıb".

Baş leytenant S.Kərimov onu da əlavə etdi ki, son illər yay aylarında da xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirildiyindən əsgərlər arasında günvurma halları artıq qeydə alınmır. "Bütün bunlar lazımi tədbirlərin həyata keçirilməsi hesabına mümkün olub.

Şəxsi heyətin vaxtlı-vaxtında yuyunması, dırnaqlarının tutulması, yataq ağlarının dəyişdirilməsi, əsgər yataqxanalarının təmizliyinə nəzarət, günün nizam qaydalarına əməl olunması və s. amillər xəstələnmə hallarının qarşısını alır. Onu da qeyd etməliyəm ki, bütün hərbi hissələrin tibb məntəqəsində ilkin tibbi yardımın göstərilməsi üçün hər cür şərait yaradılıb. Əsgərlər arasında hər hansı xəstəliyin aşkar edilməməsi üçün sanitariya maarifləndirilməsi işi daha aktiv və davamlı surətdə aparılır. Şəxsi heyət arasında mütləq gigiyenik və əks-epidemik tələblər gözlənilir. Bütün bunlar da şəxsi heyətin, əsasən də əsgərlərin sağlamlığının təmin edilməsində əsas şərt kimi qəbul olunur. Keçirilən toplantılar da tibb heyətimizin bilik və bacarıqlarının formalaşmasında xüsusi rol oynayır. Əldə edilən bilik və bacarıqların, illərlə qazanılan təcrübənin hesabına xəstəliklərin qarşısı vaxtında alınır və əsgərlərin sağlamlığının qorunması işinə töhfələr verilir".



Baş leytenant S.Kərimov şəxsi heyətin sağlamlığının keşiyində dayanan, hospitalın davamlı fəaliyyətinin təşkilində tibb bacılarının da əməyindən danışdı. O, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Ceyhunə Həsənova və çavuş Aynurə Qasımovanın, eləcə də başqa tibb bacılarının işlərinin öhdəsindən bacarıqla gəldiyini, xidmətlərinə peşəkarlıqla, vicdanla yanaşdıqlarını vurğuladı.

Baş çavuş Ceyhunə Həsənova hospitalın anesteziologiya-intensiv terapiya bölməsinin baş tibb bacısıdır. 12 ildir ki, Azərbaycan Ordusunun sıralarında Vətənə xidmət edir. Vəzifə borclarını məsuliyyətlə və layiqincə yerinə yetirdiyinə görə dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb. Baş çavuş C.Həsənova dedi ki, biz öz üzərimizdə ikiqat məsuliyyət hiss edirik. "Ona görə ki, bizim əlimizdən şəfa tapan insanlar gecə-gündüz Vətənimizin müdafiəsində dayanan hərbçilərimizdir. Bizim vəzifəmiz də onların sağlamlığını qorumaqdır. Peşəmlə qürur duyuram ki, xalqımızın dinc, rahat, sakit, sülh şəraitində yaşaması üçün canından keçməyə hazır olan xalqımızın fədakar övladlarının sağlamlığını qoruyanların sırasında mən də varam".

Çavuş Aynurə Qasımova isə hərbi hospitalın cərrahiyyə bölməsinin tibb bacısıdır. 6 ildir ki, hərbi xidmətdədir. Çavuş A.Qasımova hər zaman nümunəvi xidməti ilə seçilib. Bilik və bacarığını artıraraq işində daima nailiyyətlər qazanıb. Tibb bacısı şəxsi heyətə diqqət və qayğısını heç zaman əsirgəmədiyini, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışdığını bildirdi.

Əgər ordunun şəxsi heyəti sağlamdırsa, demək o ordunun inkişafından danışmaq olar. Bu səbəbdən də şəxsi heyətin sağlamlığı daima diqqət mərkəzində saxlanılan əsas vəzifələrdəndir. Dövlət rəhbərliyinin diqqət və qayğısı sayəsində müasir tibb müəssisələri və tibb məntəqələri tikilərək hərbi qulluqçuların istifadəsinə verilir. Hərbi tibbi personal yaradılan şəraitdən səmərəli istifadə edir, hərbi qulluqçulara nümunəvi xidmət göstərirlər. Onlar hərbi qulluqçuların qayğısına qalmaqla həm Azərbaycan Ordusuna, həm də dövlətçiliyimizə xidmət edirlər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# Polkovnik Azad bəy Vəzirov

*Azad bəy Mirzə Həmid bəy oğlu Vəzirov 22 avqust 1869-cu ildə Şuşa şəhərində zadəgan ailəsində anadan olub. O, Şuşa Realnı Məktəbində təhsil alıb.*




Azad bəy 43-cü Tver Draqun Alayına könüllü olaraq yazılıb. 20 dekabr 1888-ci ildə hərbi təhsil almaq üçün Yelizavetqrad Süvari Məktəbinə göndərilib. Buranı ikinci dərəcəli diploma bitirərək 3 iyul 1892-ci ildə "estandart-yunker" hərbi rütbəsi alıb və xidmət etdiyi alaya qayıdıb. 27 iyun 1897-ci ildə "kornet" rütbəsi alıb. 1901-ci ildən Dağıstan Süvari Alayında xidmətinə davam edib. 27 oktyabr 1901-ci ildə "poruçik" rütbəsi alıb.

1902-ci ildə Dağıstan Süvari Alayından Bakı qubernatorunun yardımçısı və digər müxtəlif vəzifələrdə xidmət edib.

27 oktyabr 1905-ci ildə "ştabs-rotmistr", 27 oktyabr 1909-cu ildə isə "rotmistr" rütbəsinə yüksəlib.

Azad bəy Vəzirov xidmətdə fərqləndiyinə görə 3-cü dərəcəli "Müqəddəs Stanislav" (1905) və 3-cü dərəcəli "Müqəddəs Anna" (1909) ordeni ilə təltif olunub.

1 sentyabr 1916-cı ildə Bakı qubernatoruna təyinatlar üzrə baş zabit təyin olunub. 1917-ci ildən "podpolkovnik" rütbəsində Bakı qubernatorunun xüsusi tapşırıqlar üzrə qərargah zabiti olub.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra o, Milli Orduda xidmətini davam etdirib. 1918-ci ilin sonu və 1919-cu ilin əvvəllərində podpolkovnik Azad bəy Vəzirov Gəncənin Hərbi Komandanı, daha sonra isə Bakı şəhərinin komendantı vəzifələrində xidmət edib. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 25 iyun 1919-cu il tarixli 28 nömrəli əmri ilə "polkovnik" rütbəsinə layiq görülüb.

AXC-nin süqutundan sonra - 1920-ci ildə Azad bəy XI Qırmızı Ordunun sıralarına daxil olub. Ordunun tərkibində İrana göndərilib. 1921-ci ildə İranın Qəzvin şəhərində vəfat edib.

Azad bəy Kərim bəy Mehmandarovun qızı Zəhra xanımla ailə qurub. İsa bəy, Musa bəy, Süleyman Vəzirov (Sovet dövlət xadimi, neft sənayesinin təşkilatçısı, Sosialist Əməyi Qəhrəmanı), İsa bəy (ikinci) adlı oğulları, Xeyrənsə xanım, Qönçə xanım və Gülrux xanım adlı qızları olub.

**"Azərbaycan Ordusu"**

## Hərbi texnikalar, silahlar

# L-39 "Albatros" təlim təyyarəsi



L-39 "Albatros" ikitandemli reaktiv təlim təyyarəsi ilkin və orta mərhələli pilot hazırlığı, alət-uçuş, naviqasiya və döyüş manevrləri üzrə təlim keçmək üçün nəzərdə tutulub. Eyni zamanda, silahlanmış təyyarə yüngül yaxın hava dəstəyi, sərhəd patrulu və kəşfiyyat tapşırıqlarını yerinə yetirmək imkanı verir.

Qanadının uzunluğu 9,12 metr olan təyyarənin boş çəkisi 3395 kiloqram, maksimum qalxma ağırlığı isə 4700 kiloqramdır. L-39 "Albatros" ikitandemli reaktiv təlim təyyarəsinin maksimum sürəti saatda 985 kilometr, uçuş məsafəsi 1150 kilometr, uçuş hündürlüyü isə 11500 metrdir.

**"Azərbaycan Ordusu"**



# Xəbərlər: hadisələr, faktlar

### Əfqanıstan Pakistandakı nüvə obyektini vurduğunu iddia edib



Əfqanıstan silahlı qüvvələri Pakistandakı nüvə obyektinə və Xayber-Paxtunxva əyalətinin Kakol şəhərindəki hərbi bazaya zərbələr endirib.

Bu barədə Əfqanıstanın "Ariana News" telekanalı məlumat verib. Telekanalın iddiasına görə, hücum nəticəsində yüzlərlə hərbçi öldürülüb və yaralanıb. Yaralılar təcili olaraq İslamabaddakı Pakistan Tibb Elmləri İnstitutuna aparılıb.

Qeyd edək ki, fevralın 26-da Əfqanıstan-Pakistan sərhədində yenidən döyüşlər başlayıb. Kabil Pakistanın Əfqanıstan ərazisinə son hava hücumlarına cavab olaraq hərbi əməliyyat keçirdiyini açıqlayıb. İslamabad toqquşmalarda 130-dan çox Əfqanıstan əsgərinin öldürüldüyünü iddia edib.

### ABŞ Yaxın Şərqdə hərbi gücünü artırır



ABŞ və İran arasında gərginlik artdıqca, Birləşmiş Ştatlar Yaxın Şərqdəki bazalarına yeni hərbi təyyarələr və təyyarədaşıyan gəmilər göndərir.

Xarici media xəbər verir ki, açıq mənbəli kəşfiyyat məlumatlarına görə, Qətərdəki Əl-Udeid, İordaniyadakı Müvəffəq Salti və Səudiyyə Ərəbistanındakı Şahzadə Sultan hava bazalarında hazırda 300-dən çox ABŞ hərbi təyyarəsi var, o cümlədən Yaxın Şərqə "Abraham Lincoln" və "Gerald R. Ford" təyyarədaşıyan gəmiləri göndərilib.

Yanvarın əvvəlindən bəri ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) təxminən 270 dəfə C-17 və C-5 logistika uçuşu həyata keçirib, eləcə də "Patriot" və "Terminal" (THAAD) raketdən müdafiə sistemləri yerləşdirib. Hazırda təxminən 75 ədəd KC-46 və KC-135 strateji nəqliyyat vasitəsi CENTCOM-a və ya bölgəyə uçuş yollarında yerləşdirilib.

Yığılan hava qüvvələri çoxsaylı dəstək və hücum təyyarələrindən ibarətdir. Bütün təyyarələrin təxminən 70 faizini 84 ədəd F-18E/F, 36 F-15E, 48 F-16C/CJ/CM və 42 F-35A/C reaktiv təyyarəsi təşkil edir, qalan 30 faiz isə ixtisaslaşmış tanker təyyarələri və hücum qırıcılarından ibarətdir. Onların sırasında 18 ədəd EA-18G "Growler" elektron müharibə təyyarəsi, 12 ədəd A-10C "Thunderbolt" yaxın hava dəstəyi təyyarəsi, 5 ədəd E-11A "Battlefield Airborne Communication Node" (BACN) təyyarəsi və 6 ədəd E3 "Sentry" Airborne Warning and Control System (AWACS) təyyarəsi var.

Keçən ilin iyun ayında İrana qarşı "Midnight Hammer" əməliyyatında istifadə edilən B-2 bombardmançı təyyarələrinin hərəkəti müşahidə edilməyib.

Ağ Ev bildirib ki, ABŞ Prezidenti Donald Trampın İrana yanaşması diplomatiyaya üstünlük verir, lakin lazım gələrsə, hərbi əməliyyatlar istisna edilmir. "Prezident Trampın ilk seçimi həmişə diplomatiyadır, lakin onun göstərdiyi kimi, lazım gələrsə, ABŞ ordusunun məhvedici gücündən istifadə etməyə hazırdır", - deyə mətbuat katibi Kerolayn Livitt jurnalistlərə bildirib.

Eyni zamanda, İsrailin KAN ictimai telekanalı fevralın 25-də məlumat yayıb ki, ABŞ bu ölkədəki hərbi bazaya da 12 ədəd F-22 hərbi təyyarəsi göndərib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycanı Avropa Kubokunda 6 cüdoçu təmsil edəcək




Fevralın 28-dən martın 1-dək İspaniyanın Mostoles şəhərində gənc cüdoçular arasında Avropa Kubokunda iştirak edəcək Azərbaycan təmsilçiləri bəlli olub.

Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə reallaşacaq yarışda ölkəmizi 3 çəki dərəcəsində 6 cüdoçu təmsil edəcək.

Avropa Kubokunda Çinarə Sadıqova, Fəridə Mirzəyeva, Aysun Məmmədova, Nuranə Hacızadə (hamısı 52 kq), Vüsalə Hacıyeva (57 kq) və Nilgün Rzayeva (63 kq) qüvvələrini sınayacaqlar.

Milli komandaya qadınlardan ibarət yığmanın böyük məşqçisi Saşa Herkenrat-Vimar rəhbərlik edəcək. Turnirdə 23 ölkədən 532 idmançı mübarizə aparacaq.

### "Qarabağ" Azərbaycan futbolunda mütləq rekorda imza atıb



"Qarabağ" UEFA Çempionlar Liqasında vurduğu qolların sayına görə rekorda imza atıb.

Ağdam təmsilçisi 2025/2026-cı illər mövsümündə ümumilikdə 31 dəfə fərqlənib ki, bu da Azərbaycan klublarının bir mövsüm üçün mütləq rekordudur. Cari mövsümdə Azərbaycan klubları avrokuboklarda 48 qol vurub. Bu da 2023/2024-cü illər mövsümündəki məhsuldarlıq rekordunun təkrarıdır. Bu qollardan 31-i məhz "Qarabağ"ın payına düşür.

### "Baku Open" stolüstü tennis turniri keçiriləcək




Beynəlxalq Stolüstü Tennis Federasiyasının yaradılmasının 100 illiyinə və Bakının 2026-cı il "Dünya İdman Paytaxtı" seçilməsinə həsr olunan "Baku Open" turniri keçiriləcək.

Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən "Şüa İdman Kompleksi"ndə təşkil olunacaq turnirdə əsasən həvəskar və veteran idmançılar bacarıqlarını göstərəcəklər. Peşəkar idmançılar yalnız qoşa yarışlarda (bir peşəkar və bir həvəskar olmaqla) mübarizə aparacaqlar.

Aprelin 4-5-i və 11-12-də keçiriləcək yarışın mükafat fondu 3000 manat olacaq. Turnirə qatılmaq istəyənlər Azərbaycan Stolüstü Tennis Federasiyasına müraciət edə bilərlər.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Kərimov Əhməd Midhəd oğluna verilmiş SQ № 0028248 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Eyvazov Əli Samir oğluna verilmiş MV № 118763 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cəfərov Ruslan Şəmsəddin oğluna verilmiş MV № 123275 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Babayev Mübariz Ayaz oğluna verilmiş MV № 002037 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 163
Nüsxə 3638